# Firqəmizin birinci il dönümü bayramı münasibətilə Dövlət teatr salonunda

## s.c. Pişəvəri

...Mən bu bayramı olən öz tərəfimdən və firqə tərəffindən təbərik edirəm!

12 Şəhrivər mənim nəzərimcə çox tez keçdi, mənim yadımdadır ki, keçən 12 Şəhrivərdə haman bu salonda aqayi doktor Orənginin istisna icazəsilə eliyə bilmişdik birinci dəfə olaraq bütün təbəqatdan bu salona yığıb və firqəmizin məqsədini xəlqə e’lan edək.

Biz istədiklərimizi xəlqə dedik. Bu e`lamiyyənin nəvaqisini onlardan soruşduq və xahiş etdik ki, əgər e`lamiyyə də islah etəmli bir şei varsa onu desinlər ta biz düzəldib müntəşir edək.

Mən o zaman haman bu salonda İran nəqşəsini təşərih etdim və bizim islahat və azadlığımızın İran mühiti içində olmağını qeyd etdim, indi bir ildir ki, bizim firqəmizin tə’sisindən keçir və bu bir ill içində dünyaya sabit olub ki, bizim nehzətimiz tək Azərbaycanı islah etməkdən ötrü deyil bəlkə, bütün iranda istiqlalın tə’minindən ötrü idi.

İndi bizim düşmənlərimiz verdiklərimiz imtahanlara baxmayaraq bizi təcziyəedən adlandırırlar və bizi İran azadlığının düşməni hesab edirlər.

Biz bir tərəfdən xoşbəxtik, çünkü, bu adamlar İran xəlqinin düşmənləri və onları əsarətdə saxlayan adamlardılar və bu adamların işləri bütün dünyaya aydındır kı, bunlar bu sözləri deiəndə bütün xəlq bilir ki, bu adamlar həmişə öz mənfəətləri üçün töhmət dedikləri kimi bu sözləri də iftira deyirlər. Ləndən radiosu bizim nümayəndələrimiz Tehran dövləti ilə danışıq apardığı vaxtda bizim dilimizcə radio pəxş edibdir ki, guya biz irandan ayrılmaq istəyirik, Dehli radiosu da bu sözü təkrar edib. Tehranda nəşr olunan «Ettela'at» ruznaməsi və sayir ruznamələr də bu sözü ab- tab ilə dərc ediblər.

Bizim xoşbəxtliyimiz buradadır ki, bütün İran xəlqi bilir ki, bucür adamlar haradan ilham alırlar və biganələr bucür şayi'ələr yayırlar ki, Xuzıstanı işğal etməyə söz olmasın. Biz də deyirik: «İt hürər kərvan keçər».

Bizim gördüyümüz işlərin sayı çoxdur, hələ dünən iki böyük müəssisə iftıtah etmişik:birisi mamalıq fakultəsidir, o birisi də iranda nəziri olmayan milli orkestrin açılışıdır. Bunlar söz deyil əməldir və həmişə də əməl sözdən qüvvətli olar.

Bizim gördüyümüz işlərin əsası firqəmizdir, o vaxt firqə mühiti hesaba aldı. Biz xəlqin ehtiyacların düşünərək 12 Şəhrivər e`lamiyyəsin yazıb intışar verdik. Biz fikir etdik ki, xəlqə dayanmalıyıq. Çünkü mən bilirdim ki, hər bir firqə tək özbaşına iş görə bilməz, xəlqi gərək dalınca aparsın. Xəlq ona inansın. Biz on iki Şəhrivər e`lamiyyəsini yazıb 12 maddədən ibarət olan şuarlarımızı meydana atdiq, İran və Azərbaycan vəz’iyyətin təşərih etdik, orada böyük məsələ Azərbaycanın daxili muxtariyyət məsələsidir. Fikir edirdik əgər azərbaycanın muxtariyyəti olmasa xəlqin ehtiyacların tə’min edə bilmərik. Fəqət xəlq hökuməti xəlqin ehtiyacların tə’min edəbilər.

Bir də Azərbaycanın milliyyət məsələsidir, bu məsələ taza bir məsələ deyildir. Hətta əgər məşrutə tarixinə baxsaq, məşrutə fərmanı və telqraflar Azərbaycan millətinin adına verıldı, lakin onu sürtüb aradan aparmışlar, bunu aradan aparan iki quvvə idi.Fars mütəəssibləri fikir edirdilər Azərbaycan xəlqi özün idarə edərsə onların hakimiyyətinə xələl varid olacaqdır. Ona görə də istədilər ki, xəlqin fikirini boğsunlar.

Azərbaycanda olan mürtəce'lər hərəkəsdən artıq bizim əleyhimizə çıxırdılar. Çünkü onlar qorxurdular ki, daha xəlqin müqəddəratı onların əlindən çıxsın. Ona görə bizi təcziyəçi adlandırırdılar. Bir surətdə ki, biz iranı təcziyə etmək stəmirdik. Əgər bizim daxili muxtariyyətimiz olsaydi iranın mərkəziyyəti möhkəmləşərdi. Bizim e`lamiyyəmizin əsasını təşkil edən iranın istiqlaliyyətidr.

Məşrutəni Azərbaycan xəlqi alan zaman mürtəce'lər deyirdilər ki, Azərbaycan cümhuriyyət təşkil vermək istəyir. O vaxt Tehran qorxurdu, həqiqətdə isə məşrutəni alan Azərbaycan xalqı oldu.

O zamanın əyaləti əncümni indiki əyaləti əncüməninə bənzəmirdi. Onda mərkəzi hökumət əncümən əyalətidən qorxurdu. O zaman qanun əsasını Təbrizə göndərmişdilərki, Azərbaycan xalqı təsdiq etsin.

Üç dörd nəfərdən artıq olmayan xainlər bizim nehzətimizi boğmaq istəyirdi. Azərbaycan xalqının dilini inkar etməyə çalışırdı.

Halbuki, Azərbaycan xalqının dili və ədəbiyyatı vardır. Dil məsələsi böyük msələdir. Bunu almaq və mürtəce'lər ilə mübarizə etmək şəhamət istəyirdi, biz o şəhamti göstərdik və qorxmadıq. (gurultulu alqışlar)

Bu bir siyasi məsələ idi. O dəfə Tehran bunun mə'nasını başa düşmürdü. Ümumı danışıqlar və sözlər kimi bilirdi. O fikir edirdi ki, bu e`lamiyyə və telqraflar qabaqkı kimi söz halında qalacaq, bunlara cavab vermək istəmirdilər. Deyirdilər bunların müə'llifləri məchul adamlardır.

Tehran bizim əncümən əyaləti məsələsini aradan getmiş bir qanun hesab edirdi. Biz bugun onu rəsmi surətdə almağa müvəffəq olmuşuq.

İkinci məsələ dil məsələsi idi. Bu məsələ bizim üçün ölüm dirim msələsidir.

Dil məsələsi ilə eləyə bilərdik xalqı öz ətrafımıza toplayaq. Ona görə dil msələsini birinci dəfə ortaya qoyduq. Çalışdıq ki, uşaqlarımızı yad dildən qurtaraq və o tarixçilərə ki, bizim dilimizi aradan aparırdılar və deyirdilər ki,bunların dili yoxdur, bunların dili Fars dilinin şö'bəsidir, biz isbat etdik ki, bizim dilimiz müstəqil bir dildir.

Azərbaycan dili Fars dilinin şö'bəsi deyil, məxsus bir dildir. Bu dılı danmaq həqiqəti danmaq kimidir. Bizim içimizdə bir iddə adamlar vardır ki, özü Fars dili bilməz, deyəndə deyir ki, mənim dilim Fars dilidir.

Mən demirəm ki Fars dili pis dildir. Lakin mənim dilim Azərbaycan dilidir. Öz dilini danan Azərbaycanlı xain deyildir nə dir?

Bizim özümüz üçün iftixaratımız vardır. Biz bütün töhmət deyənlər ilə mübarızə edib və onları həmişəlik məğlub etdik. Biz Tehran ilə danışdıqda müveffeq olduq kı, bütün orta və hətta ali məktəblərdə və idarələrdə Azərbaycan dilincə yazılsın.

Biz böyük iş görmüşük. İllər boyu kök salan qara təbliğatın üstünə qırmızı xət çəkmişik.

Bizim dilimizi nehzətdən qabaq o qədər məhdud etmişdilər ki, teatrlar da Fars dilində aparılırdı. Ona görə də xəlq teatra rəğbət etmirdi.

Xəlq indi musiqi və teatra çox rəğbət edir. Çünkü indi öz dilində eşidir.

Bizim böyük inqilabı hərəkətimiz xalqı cəlb edirdi. Bizim nehzətimizin milli xasiyətindən birisi dil məsələsi idi. Bizim nehzətimiz dil vasitəsi ilə düniyada nüfuz və şöhrətə malik ola bildi. Dünya bildi ki, 5 milyonluq bir xalq var kı, öz dilində yazıb oxuyur. Bunu isbat etmək qəhrəmanlıqdır. İndi dünyanın məzlum millətləri bizə təhsin edirlər və bizə nicat verən bir millət kimi baxırlar. İndi sülh konfransına gələn təkcə yaxın şərqdən deyil, bəlkə Əlcəzair və Tunisdən gələn mətbu'at nümayəndələri də bizim nümayəndələrimizə demişlər ki, onlar bizim böyük işimizi təhsin edirlər. Biz indi hərcür güzəşt etsək də dil məsələsində güzştə keçmərik. Siyasi mübarizədə dalı qabaq getmək olar. Lakin əsas səngər əldən verilsə məğlub olmaq olar. Bizim də dil məsələmiz əsas bir məsələdir. Buna sərsəri baxmaq olmaz. Müraciətnaməmizdə irəli sürdüyümüz məsələlərdən birisi də topraq məsələsidir. Biz sə'y etdik ki, tezliklə xalisə yerləri bölək. İndiyə kimi iranın əksəriyyətini təşkil verən kəndlidir. Məşərutiyyət qanunundan istifadə etməyib, maliklər rəiyətlərin rə'yi ilə vəkil  olurdular. Lakin məclisdə onların əleyhinə danışırdılar. Hətta kəndliyə kiçik bir külbə belə vermək istəmirdilər. Bu nehzətdə onlara göstərdik ki, kəndlinin evi yox, bəlkə xalisə yerlərin hamısı onların gərək olsun. Biz bu nehzətdə kəndliləri jandarmların əlindən qurtardıq. Məşrutə inqilabı kəndli üçün heç bir şei ala bilməmişdi, biz onların haqını aldıq.

Məşrutə qanununda hamı qanunun müqabilində müsavidir. Biz ona əməl etdik. Ərbab ki, kənddə hakim mütləq idi onun ixtiyaratın məhdud etdik. Jandarmlar ki, ərbabla birlikdə kəndlilərə zülüm edirdilər onları da aradan apardıq. Bizim nehzətimiz kəndlilərin vəziyətini hər cəhətdən tə'min etdi.

12 Şəhrivər e`lamiyyəsinin mühüm maddələrindən birisi də dərəbəyglik üsulunu aradan qaldırmaq idi.

Bizim 12 Şəhrivər şüarlarımızın əsərində idi ki, bütün xalq firqəmizin ətrafına toplandı. Biz 12 Şəhrivər e`lamiyyəsini müntəşir edəndə onu 48 nəfər imza etmiş idi. Hətta onlardan bir parası da bə'zi bahanalara görə dalı çəkildilər. Lakin12 Şəhrivər e`lamiyyəsi nəşr olunduqdan sonra bizim on min firqə üzvümüz oldu və hizb Tudə və kargərlər təşkilatı bizə mülhəqq oldular. Bir aydan sonra biz konqrəmizi təşkil verdik və bu konqrəni yaxşı idarə etdik. Konqrə təşkil olanda firqə üzvlərinin sayı yüzminə balığ idi. Bu konqrədə bizə 300 sual verdilər. Firqə onların ətrafında müzakirə etdi.

O zaman biz bir tərəfdən azadixahları cəzb edib, bir tərəfdən də dediklərimizi həyata keçirdik. Bizim bir iftixarımız da bu idi ki, o zaman içərimizdə xain adamlar tapılmadı. Bizim hər işimiz nəqşə üzərində idi. Hətta 21-Azər qiyamımız da nəqşə üstə idi. Bir para adamlar da fikir edirdilər ki, biz iş görmürük. O zaman biz ciddiyət edirdik ki, milli məclisimiz Ləndən konfransından qabaq olsun və elə də Ləndən konfransından qabaq milli hökumətin tə'sisini e'lan etdik. Sonra biz 700 nəfərdən ibarət böyük bir xalq konqrəsi təşkil verdik. Bu konqrədə milli məclis və milli hökumətimizin binasını qoyduq. Beləliklə böyük nehzətimiz müəyyən nəticəyə çatmış oldu.

Biz məclis intixabatında qadınlara seçib seçilmək haqqı verməklə böyük qədəm götürdük. Biz Tehran ilə danışanda da şərt etdik ki, bu qanunu layihə surətində məclisə versin və təsdiq olunsun .

Biz cavanların intixabat hüququnu 27 yaşından 21 yaşına tənəzzül verdik və qanun keçirdik ki, Azərbaycanın məclisdə 42 nümayəndəsi olsun. Bizim iftixar etməli işlərimizdən birisi də əmniyyəti hifz etmək idi. Bu dünyada görünməyən bir işdir. Sonra şəhərlərin abadlığına başladıq və xar-barın qiymətini aşağı gətirdik. Bu işlərimizin nətiycəsində bütün xalq bizə tərəfdar oldular.

Əgər verdiyimiz və'dələri əməli etməsəydik heç kəs bizim firqəmizin ətrafına toplanmazdı. İndi başımız ucadır. Dediklərimizə əməl etmişik. Ona görə xalq bizə inanır və e'timad edir.(alqışlar)

Möhtərəm məsləkdaşlar! Bizim vəzifələrimiz qurtarmayıb biz gərək indi xalqın sə'adətini daha artıq tə'min edək və xalqı fəlakətdən qurtaraq. Çünkü onda deyirdik bizim əlimizdə qüdrət yoxdur. Ama indi ki, bizim əlimizdə qüdrət var, gərək xalqın sə'adətini və xoşbaxtlığını tə'min edək. Burada gərək bir şeyi də fikirimizdən çixarmayaq ki, bizim nehzətimizdə tehranda olan bə'zi azadixah olan ruznamələr məsələn Rəhbər, İrane ma, Zəfər və sayirləri əvəzsiz olaraq bizə kömək edirdilər.

Demək onlar, bizim nehzətimizin ikinci sütünü idilər. İndi gərək biz onlardan təşəkkür və qədirdanlıq edək və onları düşündürək ki, bizim xalqımız haqşünas bir xalqdır, hər kimsə onun mənfəəti yolunda bir qədəm götürərsə o, onun əvzində on qədəm götürər. Hər kəs də onun ziddinə iqdam edərsə xalq ona nifrət göstərib və onu aradan aparmağa çalışar.

İndi bizim qabağımızda iki şuar durur: Birisi aldığımız azadlığı qanuni şəkilə salmaq və təşkilatlarımızı genişləndirmək!

İkinci şuarımız azadlıq və demokrasını bütün iranda həyata keçirmək!

(Azərbaycan» ruznaməsi 5şənbə 13 Şəhrivər 1325-ci ill şumarə 1 (290) ikinci dövrə)